Ələsgərova N.Q♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2019.61.17-23
UOT 321.01

# Hürufilik təlimində ictimai-siyasi ideyalar

**Xülasə**: XIV əsrin sosial-siyasi proseslərindən şaxələnmiş hürufilik təlimi Azərbaycanın sosial-siyasi və hüquqi fikir tarixində mühüm yer tutan məzdəkilik, xürrəmilik və əxilik hərəkatının bir növ xələfi idi. Başqa sözlə, göstərilən hərəkatların ideyaları hürufiliyin ideoloji bünövrəsi, onun əsas ideya mənbəyi olmuşdur. Hürufilik hərəkatı islam dininə münasibətdə onun ehkamlarına qarşı tənqidi mövqe tutmuş, daha dəqiq desək ona qarşı müxalifətdə olmuşdur.

Hürufiliyin dini-fəlsəfi konsepsiyası üçün Allahın bütövlükdə təbiətdə, maddi aləmin predmetlərində, habelə insanda təcəssümü səciyyəvi idi. İnsanı Xaliqin ən gözəl yaranmışı hesab edən hürufilər yaratmaq qüdrətini də insanın özündə görürdülər. Onların iddiasına görə, Allahın ən böyük əsəri insanın özüdür və insan hansı bacarığa, qabiliyyətə malik olduğunu cəhalətə, dini fanatizmə aludə olduğu üçün dərk edə bilmir. Hürufilərin ideyasına görə hər şeyi yaradan, inkişaf etdirən və təkmilləşdirən insandır. Hürufilərin dini-fəlsəfi mövqeyinə görə, insan öz varlığında olan ilahi ünsürü mənəvi kamillik və əxlaqi təkamül yolu ilə inkişaf etdirir və Allah səviyyəsinə yüksəlir, onunla eyniyyət təşkil etməklə bir növ özü Allaha çevrilir. Məhz buna görə də hürufilər Allahın Fəzlullah Nəimidə təcəssüm etdiyinə bütün varlıqları ilə inanırdılar.

Əsası Fəzlullah Nəimi tərəfindən qoyulmuş və Nəsimi yaradıcılığında daha yüksək zirvəyə çatdırılmış hürufilik hərəkatı təlimi və onun mütərəqqi məzmunlu ideyaları sonrakı dövrlərdə Azərbaycanın bir çox mütəfəkkirlərinin, habelə siyasi-hüquqi fikir cərəyanlarının fəlsəfi və hüquqi dünyagörüşünün formalaşmasının ideoloji əsasına xidmət etmişdir. Bu təlimin bir sıra humanist ideyaları öz aktuallığını və həyatiliyini bu gün də itirməmişdir.

**Açar sözlər:** hürufilik; hərəkat; ideya; panteizm; traktat; təlim; dini-fəlsəfi; sosial-siyasi.

Dini-fəlsəfi və siyasi-hüquqi fikir cərəyanı olan hürufilik hələ XIV əsrin axırlarında islamın dini ehkamlarına və teymurilərin hökmranlığına qarşı yönəldilmiş hərəkat kimi yayılmağa başlamışdır.

Hürufilik hərəkatı islam dininə münasibətdə onun ehkamlarına qarşı tənqidi mövqe tutmuş, daha dəqiq desək ona qarşı müxalifətdə olmuşdur.

Azərbaycanda hürufiliyin banisi Əl-Hürufi adı ilə tanınan Fəzlullah Nəimi Təbrizi Astrabadi olmuşdur. Onun əsərlərində hürufiliyin əsasları ifadə edilmişdir [4, s. 89]. Məhz Nəimi yaradıcılığının tədqiqi əsasında belə bir nəticəyə gəlmək olar ki hürufilik ideologiyası Azərbaycanın fəlsəfi, ictimai-siyasi və hüquqi fikrinin zülmə və istibdada, sosial ədalətsizliyə və haqsızlığa qarşı inikasıdır.

XIV əsrin sosial-siyasi proseslərindən rişələnmiş hürufilik təlimi Azərbaycanın sosial-siyasi və hüquqi fikir tarixində mühüm yer tutan məzdəkilik, xürrəmilik və əxilik hərəkatının bir növ

♦ **Ələsgərova Nigar Qabil qızı -** AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun "Hüquq sahələrinin müqayisəli təhlili" şöbəsinin elmi işçisi, Azərbaycan. E-mail: huquq.insan.haqlari@mail.ru

xələfi idi. Başqa sözlə göstərilən hərəkatların ideyaları hürufiliyin ideoloji bünövrəsi, onun əsas ideya mənbəyi olmuşdur.

Hürufiliyin dini-fəlsəfi konsepsiyası üçün Allahın bütövlükdə təbiətdə, maddi aləmin predmetlərində, habelə insanda təcəssümü səciyyəvi idi. İnsanı Xaliqin ən gözəl yaranmışı hesab edən hürufilər yaratmaq qüdrətini də insanın özündə görürdülər. Onların iddiasına görə, Allahın ən böyük əsəri insanın özüdür və insan hansı bacarığa, qabiliyyətə malik olduğunu cəhalətə, dini fanatizmə aludə olduğu üçün dərk edə bilmir. Hürufilərin ideyasına görə hər şeyi yaradan, inkişaf etdirən və təkmilləşdirən insandır. Hürufilərin dini-fəlsəfi mövqeyinə görə, insan öz varlığında olan ilahi ünsürü mənəvi kamillik və əxlaqi təkamül yolu ilə inkişaf etdirir və Allah səviyyəsinə yüksəlir, onunla eyniyyət təşkil etməklə bir növ özü Allaha çevrilir. Məhz buna görə də hürufilər Allahın Fəzlullah Nəimidə təcəssüm etdiyinə bütün varlıqları ilə inanırdılar.

Hürufilərin irəli sürdüyü nəzəriyyə dərin sosial köklərə malik idi. Bu nəzəriyyənin rüşeymləri tarixin ən dərin qatlarında insanın təsəvvürlərində yaranmış iki qüvvənin – xeyirlə şərin, nurla zülmətin, haqlı ilə haqsızın, ədalətlə ədalətsizliyin mübarizəsindən başlamış sonrakı dövrlərdə meydana gələn humanist və ümumbəşəri ideyalardan güc almışdır. Təzadlarla dolu maddi və mənəvi aləmin dərinliklərinə nüfuz edən hürufiliyin ideyasına görə, təbiətin və cəmiyyətin inkişaf qanuna uyğunluqları ilə hesablaşmayan dövlət başçıları (xüsusilə də ədalətsiz qanunlarla idarə edən və dini-fanatizmə uyan hökmdarlar) qəddar və qaniçən olur, onların xalqa yabançı siyasətinə haqq qazandıran, cəmiyyətə zidd hökmdar idarəçiliyinə havadarlıq və ideoloqluq edən din xadimləri isə ikiüzlü və riyakar olurlar.

Dünyanın və təbiətin sirlərinə vaqif olan elmli və kamil insan yetişdirmək hürufilərin əsas şüarı idi. Kamillik yeni keyfiyyətli hökmdarın bir insan kimi əsas göstəricisi, onun üçün sanki etalon idi. İnsanların firavanlığa, xoşbəxtliyə və bolluğa yalnız kamil insana xas olan atributları özündə cəmləşdirən hökmdar çatdıra bilər. Yalnız müdrik, xeyirxah və ədalətli hökmdar öz təbəələrinin ağrı-acısını duya və ona məlhəm qoya bilər. Hürufilər məhz bu nöqteyi-nəzərdən Fəzlullahı Allah simalı şəxsiyyət hesab edir, ona yaranmışların ən xeyirxahı və ədalətlisi kimi baxırdılar. Lakin Nəiminin ideallaşdırılması onun alternativinin heç də olmaması demək deyildi. Xatırladılan insani keyfiyyətlər hürufilərin əzəli və son arzusu idi. Hürufi təlimi ümumiyyətlə, rəhbərlik iddiasında olan şəxsi öz gücü, qüdrəti, elmi və kamilliyi ilə bütün ədalətsizlikləri və haqsızlıqları, zülmü və istibdadı, soyğunçuluğu, nadanlığı, aclıq və səfaləti aradan qaldıra biləcək fövqəlqüvvəyə malik bir şəxsiyyət kimi görmək istəyirdilər.

Panteist fəlsəfəyə əsaslanan hürufilik təlimin güddüyü başlıca sosial-siyasi məqsəd dini ehkamların, fanatizmin ləğvinə nail olmaqdan ibarət idi. Hürufilərin kamilliklə cahilliyi. ədalətlə ədalətsizliyi, humanist dini qanunlarla mövhumatın qəddar qaydalarını, asayişlə zorakılığı və s. qarşılaşdıraraq, bəşəri dəyərləri ön plana çəkir, şəxsiyyəti yalnız insani keyfiyyətlərin fövqündə durmalı olan varlıq kimi qiymətləndirirdilər. Hürufilərin ideyasına görə, sosial həyatın bütün qüsurlarını yalnız insanlar aradan qaldıra bilər. Feodal cəmiyyətinin qüsurlarını ifşa edən hürufilər bu quruluşdakı sosial bəlaların kökünü Tanrının insanlara nəsib etdiyi tale qismində deyil, dövlət başçılarının və onların ətrafındakı qolu zorluların xalqa qarşı zidd əməllərində görürdülər. Korkoranəliyi, danışıqsız itaəti rədd edən hürufilər insanları fəallığa, ağıl və düşüncə ilə hərəkət etməyə, ideoloji vasitələrlə siyasi mübarizəyə çağırırdılar. Ona görə də hürufilərin təbliğatı dinc, şüurlu ideyalar mübarizəsindən ibarət idi. Mövcud quruluşu inqilabi yolla dəyişdirmək onların konsepsiyasına yad idi.

Hürufilik böyük ideya cərəyanı və möhtəşəm hərəkat kimi ilk dəfə Azərbaycanın qədim mədəni mərkəzlərindən olan Naxçıvanda və Astrabadda Fəzlullah Nəiminin vətənində yayılmışdır. Hürufilik sosial-siyasi hərəkat kimi, hər şeydən əvvəl, teymurilərə qarşı mübarizədə görkəmli ideoloji rol oynamışdır. Əsarət altında zülm çəkən xalqın mübarizə əzmini artırmaq, onu müstəbidə və onun qəddar üsul-idarəsinə qarşı barışmazlıq, itaətsizlik göstərmək və milli istiqlaliyyət qazanmaq ruhunda tərbiyə etmək hürufilik təliminin başlıca məqsədi, idealı olmuşdur. Bunun üçün hürufilərin ən güclü təbliğat vasitəsi olan xalq kütləsilə bilavasitə təmasda olmaq idi. Yerli və yadelli din xadimlərinin amansız təqiblərinə, vətəndən dərbədər düşüb didərgin olmalarına, eləcə də mənəviyyatı çürük olan, özünə rütbə və ucuz nüfuz qazanmaq xatirinə satqın məmurların yaltaqlığı ilə hökmdar zindanlarında dözülməz cəzalarına məruz qalmalarına baxmayaraq, hürufilər öz ideyalarını yaymaq üçün rəmzlərlə danışırdılar. Bu, onların əsas səciyyəvi xüsusiyyətlərindən biri idi. Digər tərəfdən, hürufilər özlərini Fəzlullah Nəiminin xələfləri hesab etmələrindən xüsusi şərəf duyurdular [1, s. 344].

Tarixi mənbələrdən və digər qaynaqlardan məlum olduğu kimi, Azərbaycanda hürufiliyin ən böyük ideoloqları Fəzlullah Nəimi və İmadəddin Nəsimi olmuşdur.

Fəzlullah Nəimi (1340-1402) Azərbaycanda hürufiliyin banisi olmaqla yanaşı, bu hərəkatın sosial-siyasi və hüquqi ideyalarının inkişafında, Yaxın və Orta Şərq ölkələrində yayılmasında böyük təsir gücünə malik olan mütəfəkkir idi.

Fəzlullah Nəiminin bütövlükdə yaradıcılığı və əsərlərinin məzmunu mütəfəkkirin mövcud quruluşla dərinmüxalifətdə olması haqqında şəhadət verir. [4, s. 148]. Əsərlərinin məna və qayəsindən bəlli olur ki, Nəiminin sosial-siyasi görüşləri hürufiliyin siyasi-hüquqi ideologiyasını zənginləşdirməklə yanaşı, hakim feodal quruluşunun qüsurlarının ifşasına, siyasəti yarıtmaz olan səbatsız dövlət başçılarının xalqın mənafeyinə zidd olan idarəçiliyinin tənqidinə, dövrün ədalətsiz qanunlarının cəmiyyətin ümumi inkişaf qanunauyğunluqlarının əksi olmasının aşkar edilməsinə istiqamətləndirilmiş, habelə yadellilərin işğalçılıq və qəsbkarlıq siyasətinə, yerli dövlət məmurlarının zülmünə qarşı çevrilmişdi.

Nəiminin "Məhəbbətnamə" ("Məhəbbət haqqında kitab") traktatı mütəfəkkirin yaradıcılığının erkən dövrünə təsadüf edir. Nəimi bu traktatında öz təliminin bir sıra köklü məsələlərini nəzərdən keçirmiş, islamın artıq mükəmməl bir dini ideologiya kimi hökmranlıq etdiyi dövrdə Quranın daxili və sirli mətləblərini açmağa səy göstərmişdir. Traktat həm də hürufiliyin sufi dünyagörüşü ilə üzvi surətdə bağlılığı, habelə hürufiliyin dini-fəlsəfi və siyasi ideologiyasının özünün orijinallığı haqqında şəhadət verir.

Nəiminin "Məhəbbətnamə" traktatında irəli sürdüyü hürufilik ideyaları onun müasiri olduğu dövrün panteizmi idi. Mütəfəkkir əsərdə panteizmin əsaslarını yeni hürufilik kontekstində istifadə etmişdir.Yeni hürufilik ideologiyasının əsasları maddi aləmin panteistcəsinə dərk edilməsinin orijinal sistemi idi. Nəimiyə görə, dünyanın gözəlliyi, məhəbbət, yaradanın və insanların birliyi dünyanın xaricində yox, dünyanın özündədir. O, bu ideyası ilə dünyanın dərketmənin, yəni onun gözəlliyinin dünyanın xaricində olmasına dair Platonun idealist təlimindən fərqli olaraq materialist bir təlim yaratmışdır. Mütəfəkkirin fikrincə, məhəbbətin həqiqiliyini, ülviliyini duyan insan kamilləşir, qəbahətli hərəkətlərdən çəkinir, zorakılığa nifrət edir, müvəqqəti və heyvani əyləncələrdən uzaqlaşır. Nəiminin ifadə etdiyi məhəbbət fəlsəfi məzmuna malik olmaqla yanaşı, bəşəri xarakter daşıyır. Bu, hər şeydən əvvəl, insana, cəmiyyətə və dünyaya, onun gözəlliyinə olan məhəbbət, məftunluğu idi. Məhz bu baxımdan da mütəfəkkir müasiri olduğu dövlət başçılarının ədalətsizliyinin, zülm və istibdadının səbəbini onlarda məhəbbət hissinin olmamasında, dünyanın

gözəlliyini və insasnın sosial dəyərini qiymətləndirə bilməməsində görürdü. Nəiminin belə mövqeyindən bu nəticəyə gəlmək olur ki, insanın cəmiyyətlə, dövlətin şəxsiyyətlə, hökmdarın təbəələrlə qarşılıqlı əlaqəsi müştərək məhəbbətin vəhdətidir. Mütəfəkkir cahilliyi, bədxahlığı, sosial zülmmü və ədalətsizliyi həmişə lənətləmiş, müasiri olduğu dövlət başçılarını belə davranmaqdan əl çəkməyə çağırmışdır.

Beləliklə, hürufiliyin siyasi və hüquqi ideologiyasının formalaşması və inkişafında onun yaradıcısı kimi xüsusi çəkisi olan Fəzlullah Nəimi öz yaradıcılığının bütün dövrlərində panteist mövqelərində dayanmış və onu özünün yeni hürufilik ideyaları ilə daha da zənginləşdirmişdir. Hürufilik cərəyanı nəticə etibarilə panteizmin təkmilləşdirilmiş konsepsiyası kimi çıxış etmişdir.

Hürufilik dini-fəlsəfi və siyasi cərəyanlarının bütün prinsipial müddəaları Fəzlullah Nəiminin təlimində ifadə və inkişaf etdirilərək, təkcə Azərbaycanda deyil, Yaxın və Orta Şərq ölkələrində fəlsəfi, siyasi və hüquqi fikrin formalaşmasına, habelə inkişafına böyük təsir göstərmişdir. Əsası Nəimi tərəfindən qoyulmuş hürufilik təliminin ideyaları sonrakı dövrlərdə bir çox mütəfəkkirlərin fəlsəfi, siyasi və hüquqi dünyagörüşünün formalaşmasının ideoloji əsasına xidmət etmişdir. Mütəfəkkirin mütərəqqi məzmunlu ideyaları bir çox əsrlər ərzində onun çoxsaylı xələfləri və ardıclıları tərəfində yaradıcılıqla inkişaf etdirmişdir. Əbülhəsən Əli-ül-Əla, Həqiqi, Qasim Ənvar, Seyid İshaq, Mir Fazili, Nəsrullah Nəfisi və bir çox başqaları hürufilik ideologiyasının görkəmli ardıcılları olmuş və məhz Nəimini öz müəllimləri hesab etmişlər.

Azərbaycanda Fəzlullah Nəimidən sonra hürufiliyin ən böyük nümayəndəsi dahi alim və filosof, şair-mütəfəkkir İmadəddin Nəsimi (1370-1417) hesab edilir.

Seyid Əli İmadəddin Nəsimi Azərbaycanın ictimai-siyasi, fəlsəfi və hüquqi fikir tarixinin parlaq simalarından biri olub, xalqımızın klassik poeziyasında siyasi-fəlsəfi məzmunlu şeirin ilk nümayəndəsidi. Hürufiliyin siyasi-hüquqi ideologiyasının inkişaf etdirilməsində, onun Azərbaycandan kənarda – Türkiyədə, İraqda, Suriyada, Keniyada, Orta Asiya ölkələrində və bir sıra digər müsəlman dövlətlərində yayılmasında əvəzsiz xidmətləri olmuşdur. Nəsiminin bu sahədəki müstəsna xidmətləri həm də ondan ibarət olmuşdur k, o, daşıyıcısı olduğu ideologiyanı bəzi məqamlarda dövlət səviyyəsindəki siyasətin ideya istiqamətinə çevirməyə səy etmişdir.

Nəsiminin yaradıcılığa başladığı dövrdə hürufilik artıq geniş yayılmış bir ideologiya idi. O, demək olar ki, Yaxın və Orta Şərqin əksər ölkələrini bürümüşdü və elə bir zirvədə idi ki, öz ardıcıllarının sosial-siyasi görüşlərinin mərkəz xəttini təşkil edirdi. Hürufilik Nəsimi yaradıcılığında həya fəlsəfəsi və həqiqətləri, insanın kamilləşməsi və dünyanı dərketmə uğrunda ideoloji üsul qismində çıxış edirdi. Nəsiminin ideyasına görə, insan istədiyi və layiq olduğu zirvəyə öz idrakı, möhkəm iradəsi, əqli və zəkası ilə qalxa bilər. Bu baxımdan onun "Sığmazam" əsəri klassik şeirimizin ən nadir incilərindən biri kimi, insan qüdrətini, onun hər şeyin mənbəyi olduğunu tərənnüm edən böyük abidədir [2, s. 131-132].

Nəsiminin hüquqi görüşləri də xeyli maraq doğurur. Onun yaradıcılığında müsəlman hüququnun mütləq sərəncamlarının tənqidinə dair bir sıra şerlərə rast gəlmək olar. Nəsimi feodal qanunlarının təntənəsinə və ədalətli olmasına inanmırdı. Onun fikrincə, xalq kütlələrinin hüquqsuz vəziyyətini təsbit edən feodal hüququnun özü özbaşınalıq və zorakılıq doğurur, ictimai münasibətlər qanunlarla deyil, bu qanunları tətbiq edənlərin mülahizələri ilə və məhdud mənafelərilə tənzim edilir [3, s. 82-83]. Ona görə də mütəfəkkir öz müasirlərinə mövhumatı insanın təbii azadlıqlarından yüksəkdə tutan ilahiyyatçı hüquqşünaslara inanmamağı tövsiyə edirdi. Nəsimiyə görə, haqqı və ədaləti birinci danan məhz onların özüdür.

## N Ə T İ C Ə

Beləliklə, hürufiliyin siyasi-hüquqi ideologiyasının təhlili göstərdi ki, bu təlim Yaxın və Orta Şərqin deyil, həm də Avropanın ideoloji fikir cərəyanlarına bu və ya digər formada daxil olaraq, onların inkişafına xeyli dərəcədə təsir göstərmişdir.

Əsası Fəzlullah Nəimi tərəfindən qoyulmuş və Nəsimi yaradıcılığında daha yüksək zirvəyə çatdırılmış hürufilik hərəkatı təlimi və onun mütərəqqi məzmunlu ideyaları sonrakı dövrlərdə Azərbaycanın bir çox mütəfəkkirlərinin, habelə siyasi-hüquqi fikir cərəyanlarının fəlsəfi və hüquqi dünyagörüşünün formalaşmasının ideoloji əsasına xidmət etmişdir. Bu təlimin bir sıra humanist ideyaları öz aktuallığını və həyatiliyini bu gün də itirməmişdir.

## Biblioqrafiya

1. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik /red. Y.B. Yusifov. - Bakı: İnterturan, 1994. - 264 s.

2. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. / elmi red. X. Yusifov. - Bakı: Maarif, 1985. - 440 s.

3. Məlikova M.F., Bayramov E.R. Azərbaycanın siyasi-hüquqi nəzəriyyələr tarixi (oçerklər). - Bakı: Maarif, 1984. - 310 s.

4. Кули-заде З.А. Хуруфизм и его представители в Азербайджане. - Баку: Элм, 1970. - 265 с.

**Alesgerova N.G.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.61.17-23**
**УДК 321.01**

## Social-political ideas in the hurufizm movement

**Abstract**: The doctrine of hurufizm, dating from the social and political processes of the fourteenth century, was a kind of sophistication of charisma, philanthropy, and that has played an important role in the history of Azerbaijan's socio-political and legal thought. In other words, the ideas of these movements have been the ideological foundation of hurufizm and its main source of ideas. The hurufizm movement has taken a critical stance against Islam and its opposition to it.

The religious-philosophical concept of hurufizm was characteristic of Allah (God) in nature, in the material world. They also saw the power of man to create the Hurufians, who regarded man as the most beautiful creation of the people. They claim that the greatest work of Allah (God) is man himself, and he cannot understand the abilities and abilities of the person because he is absorbed in ignorance and religious fanaticism. The hurufizm movement creates, develops and improves everything according to the ideas of the superstitious. According to the religious and philosophical position of the hurufizm, the divine element in his being is developed through moral perfection and moral evolution and he attains the level of Allah (God), becoming one with God. That is why the Hurufists believed with all their being that Allah (God) manifested in Fazlullah Naimi.

The training of the movement and its progressive ideas, laid down by Fazlullah Naimi and brought to a higher level in Nasimi's creativity, has shaped the philosophical and legal outlook of many thinkers of Azerbaijan, as well as the political and legal trends. A number of humanistic ideas of this doctrine have not lost their relevance and vitality even today.

**Keywords:** Hurufism; movement; idea; pantheism; treatise (scripture); teaching; religious philosophical; socio-political.

## References

1. *Azerbaycan tarixi.* Ali mektebler uchun derslik/red. Y.B.Yusifov [History of Azerbaijan; Textbook for Universities/ed. by Y.B. Yusifov]. Baku, 1994, 264 p.

2. Imadaddin Nasimi. *Secilmish eserleri.* / elmi red. X. Yusifov [Imadaddin Nasimi. Selected works; ed. by Kh. Yusifov]. Baku, 1985, 440 p.

3. Malikova M.F. *Azerbaycanin siyasi-huquqi nezeriyyeler tarixi (ocherkler)* [History of political and legal theories of Azerbaijan (essays)]. Baku, 1984, 310 p.

4. Kulizade Z.A. *Hurufizm i ego predstaviteli v Azerbaijane* [Hurufism and its representatives in Azerbaijan]. Baku, 1970, 265 p.

[♦] **Alesgerova Nigar Gabil gizi –** Researcher of the Department for Comparative Analysis of Law fields of the Institute of Law and Human Rights of Azerbaijan National Academy of Sciences, Azerbaijan. E-mail: huquq.insan.haqlari@mail.ru

**Алескерова Н.Г.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.61.17-23**
**УДК: 321.01**

**Общественно-политические идеи в движении хуруфизма**

**Аннотация**: Доктрина хуруфизма, основанная на социальных и политических процессах XIV века, была своего рода изощренной харизмой, благотворительностью, и это сыграло важную роль в истории общественно-политической и правовой мысли Азербайджана. Другими словами, идеи хуруфизма были идеологической основой этих движений и его основным источником. Движение хуруфизма занимало критическую позицию против ислама и противодействовало ему.

Религиозно-философская концепция хуруфизма была характерна для Аллаха в природе, в материальном мире. Они также видели силу человека в создании хуруфов, которые считали человека самым прекрасным творением. Они утверждают, что величайшая работа Аллаха - это сам человек, и человек не может понять свои способности и возможности, потому что поглощен невежеством и религиозным фанатизмом. Движение хуруфизмов создает, развивает и совершенствует все согласно представлениям суеверных. Согласно религиозно-философской позиции хуруфизма, божественный элемент в его существе развивается через нравственное совершенство и нравственную эволюцию, и он достигает уровня Бога, становясь единым с Богом. Вот почему хуруфисты верили всем своим существом, что Аллах проявился в Фазлуллахе Наими.

Изучение движения и его прогрессивных идей, заложенных Фазлуллахе Наими и выведенных на более высокий уровень в творчестве Насими, сформировало философские и правовые взгляды многих мыслителей Азербайджана, а также политические и правовые тенденции. Ряд гуманистических идей этой доктрины не утратил своей актуальности и жизнеспособности даже сегодня.

**Ключевые слова:** хуруфизм; движение; идея; пантеизм; трактат (писание); учение; религиозно-философический; социально-политический.

**Библиография**

1. История Азербайджана: учеб. для вузов под ред. Ю.Б. Юсифова. – Баку: Интертуран, 1994. - 264 с. (на азерб. яз.)

2. Имададдин Насими. Избранные произведения: под ред. Х. Юсифова. - Баку: Маариф, 1985. - 440 с. (на азерб. яз.)

3. Маликова М.Ф. История политических и правовых теорий Азербайджана (очерки). - Баку: Маариф, 1984. - 310 с. (на азерб. яз.)

4. Кулизаде З.А. Хуруфизм и его представители в Азербайджане. - Баку: Элм, 1970. - 265 с.

[♦] **Алескерова Нигяр Габиль кызы –** научный сотрудник, отдел «Сравнительный анализ в областях права», Институт права и прав человека НАНА, Азербайджан. E-mail: huquq.insan.haqlari@mail.ru